## Xocalı Soyqırımının dördüncü ildönümü ilə əlaqədar xalqa müraciəti

Əziz həmvətənlərim!

Müstəqillik və azadlıq uğrunda mübarizə tariximizə əbədi həkk olunmuş dəhşətli gündən - Xocalı soyqırımından dörd il keçir. O zamankı iqtidarın günahı ucbatından taleyin ümidinə buraxılmış Xocalının yüzlərlə dinc, köməksiz sakini - qocalar, qadınlar, körpələr erməni təcavüzü nəticəsində qəddarcasına qətlə yetirildilər. Xalqımıza qarşı yeridilmiş bu məqsədyönlü soyqırım siyasəti insanlıq və bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacaqdır. Əsrın ən böyük faciələrindən olan Xocalı soyqırı erməniqəsbkarlarının vəhşiliklərini bütün dünyaya bir daha nümayiş etdirdi.

Xocalı faciəsi xalqımızı sarsıtsa da, onun dözümünü, iradəsini qıra bilmədi.

Bu müsibət müqəddəs Vətənimizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü, sərhədlərimizin toxunulmazlığı uğrunda mübarizədə bizi daha da mətinləşdirdi və birləşdirdi. Bu gün şəhidlərimizin müqəddəs ruhu işğal olunmuş torpaqlarımızın azad edilməsi və qaçqın soydaşlarımızın öz yurdlarına qaytarılması uğrunda mübarizədə hər birimizi daha böyük əzmkarlıq göstərməyə səsləyir.

Xalqımızın milli hüzn günündə Xocalı müsibətinin günahsız qurbanlarının ruhu qarşısında ehtiramla baş əyirəm. Azərbaycanın azadlığı və işıqlı gələcəyi naminə əbədiyyətə qovuşmuş insanlar heç vaxt unudulmayacaqlar.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Pespublikasının Prezidenti**

24 fevral 1996-cı il